Coğrafiya elmləri / Geographical Sciences

COĞRAFİYANIN TƏDRİSİNDƏ QEYRİ-STANDART DƏRSLƏRİN TƏŞKİLİ METODİKASI

İradə Nağıyeva[1]*
[1]*Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan*
**Məsul müəllif: ii.nagiyeva@adpu.edu.az*

Açar sözlər: *coğrafiyanın tədrisi, qeyri-standart dərslər, interaktiv təlim, layihə metodu, idrak fəallığı, praktik bacarıqlar*

Xülasə. Məqalədə coğrafiyanın tədrisində qeyri-standart dərslərin təşkili metodikası və tətbiq imkanları araşdırılır. Tədqiqatın məqsədi bu dərslərin şagirdlərin idrak fəallığının, müstəqil düşünmə və praktik bacarıqlarının inkişafındakı pedaqoji imkanlarını müəyyənləşdirməkdir. Araşdırma elmi-metodik ədəbiyyatın təhlilinə, ənənəvi və interaktiv təlim yanaşmalarının müqayisəsinə, həmçinin müəllifin coğrafiyanın tədrisi təcrübəsinə əsaslanır. Sinif-dərs sisteminin inkişaf xüsusiyyətləri nəzərdən keçirilir, müasir kurikulumun tələbləri baxımından şagirdyönümlü təlimin əhəmiyyəti şərh olunur. Səyahət, məhkəmə, oyun, layihə, səhnələşdirilmiş, konfrans və debat dərslərinin təşkili coğrafi mövzulara uyğun nümunələrlə izah edilir. Xəritələrlə iş, coğrafi problemlərin müzakirəsi, rollu oyunlar və layihə tapşırıqlarının şagirdlərin təlim fəaliyyətinə cəlb olunmasındakı imkanları qiymətləndirilir. Coğrafi informasiya sistemlərindən və məsafədən zondlama məlumatlarından istifadənin tədrisdə əyaniliyin gücləndirilməsi və tədqiqat bacarıqlarının formalaşdırılması baxımından əhəmiyyəti göstərilir. Təqdim olunan metodik nümunələr qeyri-standart dərslərin coğrafi biliklərin praktik tapşırıqlarla əlaqələndirilməsi, əməkdaşlıq, ünsiyyət, tənqidi və yaradıcı düşünmə bacarıqlarının dəstəklənməsi üçün imkan yaratdığını göstərir. Bu dərslərin səmərəli təşkili üçün təlim məqsədlərinin aydın müəyyənləşdirilməsi, yaş xüsusiyyətlərinin nəzərə alınması, tapşırıqların mövzuya uyğun seçilməsi və qiymətləndirmə meyarlarının əvvəlcədən hazırlanması tövsiyə olunur.

© 2026 Müəllif(lər). Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutu tərəfindən nəşr edilmişdir. Bu məqalə Creative Commons Attribution 4.0 Beynəlxalq Lisenziyası (CC BY 4.0) əsasında yayımlanır.

Giriş

Müasir təhsil şəraitində coğrafiyanın tədrisi şagirdlərə fakt və anlayışların mənimsədilməsi ilə yanaşı, onlarda məkan təfəkküründün, müstəqil araşdırma və praktik tətbiq bacarıqlarının formalaşdırılmasını nəzərdə tutur. Coğrafiya fənninin məzmun standartlarında coğrafi obyekt və hadisələrin izahı, xəritələrdən istifadə, müqayisə və təhlil, eləcə də əldə edilmiş biliklərin müxtəlif situasiyalarda tətbiqi mühüm yer tutur. Bu baxımdan təlimin təşkili formalarının və metodlarının dərsin məqsədlərinə uyğun seçilməsi xüsusi əhəmiyyət daşıyır (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2011).

Coğrafiyanın tədrisində ənənəvi dərslər biliklərin sistemli təqdimatına və əsas anlayışların mənimsənilməsinə xidmət edir. Bununla yanaşı, şagirdlərin fəal iştirakını təmin etmək üçün müzakirə, araşdırma, əməkdaşlıq və yaradıcı tapşırıqlara əsaslanan təlim formalarından istifadə olunması məqsədəuyğundur. Ənənəvi və interaktiv yanaşmaların əlaqələndirilməsi mövzunun məzmununa, şagirdlərin hazırlıq səviyyəsinə və gözlənilən təlim nəticələrinə uyğun dərs mühitinin yaradılmasına imkan verir (Seyfullayeva, 2011; Alxasov, 2013).

Qeyri-standart dərslər təlim prosesinin səyahət, oyun, məhkəmə, layihə, səhnələşdirmə, konfrans və debat kimi müxtəlif fəaliyyət formaları əsasında təşkilini nəzərdə tutur. Bu dərslərdə şagirdlər məlumatı dinləməklə kifayətlənmir, coğrafi problemləri araşdırır, xəritə və digər əyani vasitələrlə işləyir, mövqelərini əsaslandırır və nəticələrini təqdim edirlər. Müəllim isə tapşırıqların hazırlanmasını, fəaliyyətin istiqamətləndirilməsini və qiymətləndirməni təşkil edir. Belə yanaşma şagirdlərin müstəqil işinin və qarşılıqlı əməkdaşlığının dəstəklənməsi baxımından əhəmiyyətlidir (Nağıyeva, 2019; Verdiyeva, 2022).

Qeyri-standart dərslərin təşkilində layihə metodu xüsusi yer tutur. Problemin müəyyənləşdirilməsi, məlumatların toplanması, həll

yollarının araşdırılması və nəticələrin təqdim olunması şagirdlərin nəzəri biliklərini praktik fəaliyyətlə əlaqələndirməsinə imkan yaradır. Coğrafi mövzular üzrə layihələr yerli təbii şəraitin, ekoloji problemlərin və təbii ehtiyatlardan istifadə xüsusiyyətlərinin araşdırılması əsasında qurula bilər (Mehrabov, 2007). İnteraktiv tapşırıqların seçilməsi zamanı şagirdlərin yaş və fərdi xüsusiyyətlərinin, dərsin məqsədinin və fəaliyyət üçün ayrılan vaxtın nəzərə alınması da vacibdir (Veysova, 2013).

Mövzunun aktuallığı coğrafi biliklərin gündəlik həyatla əlaqələndirilməsi, şagirdlərin dərsdə fəal iştirakının təmin olunması və müstəqil düşünmə bacarıqlarının dəstəklənməsi ehtiyacından irəli gəlir. Bunun üçün qeyri-standart dərslər yalnız əyləncəli fəaliyyət kimi deyil, konkret təlim məqsədlərinə xidmət edən, tapşırıqları və qiymətləndirmə meyarları əvvəlcədən müəyyənləşdirilmiş dərs formaları kimi təşkil edilməlidir.


Tədqiqatın məqsədi coğrafiyanın tədrisində qeyri-standart dərslərin təşkili xüsusiyyətlərini araşdırmaq və müxtəlif mövzular üzrə tətbiq imkanlarını metodik nümunələrlə göstərməkdir. Bu məqsədlə ənənəvi və qeyri-standart dərslərin xüsusiyyətləri müqayisə edilir, ayrı-ayrı dərs modellərinin təşkili izah olunur və onların şagirdlərin idrak fəallığını, əməkdaşlığını və praktik bacarıqlarını dəstəkləmək imkanları nəzərdən keçirilir.

Material və metod

Tədqiqatın materiallarını coğrafiya fənninin kurikulum sənədləri, VI–XI sinif coğrafiya dərslikləri, coğrafiyanın tədrisi metodikasına dair elmi-metodik ədəbiyyat və müəllifin ümumtəhsil məktəblərindəki pedaqoji təcrübəsindən seçilmiş dərs nümunələri təşkil edir. Araşdırmada qeyri-standart dərslərin təşkili fənnin məzmun standartları, şagirdlərin müstəqil fəaliyyətinin təşkili və interaktiv təlim prinsipləri baxımından nəzərdən keçirilmişdir (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2011; Veysova, 2013; Nağıyeva, 2019).

Tədqiqat zamanı elmi-metodik ədəbiyyatın təhlili, müqayisəli təhlil və pedaqoji təcrübənin ümumiləşdirilməsi metodlarından istifadə edilmişdir. Ənənəvi və qeyri-standart dərslər müəllim və şagirdin fəaliyyəti, tapşırıqların məzmunu, əyani vasitələrdən istifadə və fərdi, cütlərlə, qruplarla işin təşkili baxımından müqayisə olunmuşdur. Dərs formalarının metodik xüsusiyyətlərinin izahında coğrafiyanın tədrisinə dair vəsaitlər əsas götürülmüşdür (Seyfullayeva, 2011; Alxasov, 2013; Verdiyeva, 2022).

Araşdırılan dərs formaları ənənəvi və qeyri-standart dərslər üzrə qruplaşdırılmışdır. Bu bölgü müxtəlif dərs modellərinin təşkili xüsusiyyətlərini sistemləşdirmək və onların coğrafi mövzulara tətbiq imkanlarını nəzərdən keçirmək üçün istifadə edilmişdir. Dərs formalarının təsnifatı Sxem 1-də təqdim olunur.



Sxem 1. Ənənəvi və qeyri-standart dərslərin təsnifatı
Mənbə: Mehrabov (2007) əsasında

Təsnifata uyğun olaraq səyahət, məhkəmə, oyun, layihə, səhnələşdirilmiş, konfrans və debat dərsləri üçün metodik nümunələr nəzərdən keçirilmişdir. Nümunələrdə tapşırığın məqsədi, şagirdlərin fəaliyyəti, istifadə olunan coğrafi məlumat və təqdimat formaları əsas götürülmüşdür. Təqdim olunan nümunələr müəllifin pedaqoji təcrübəsinin ümumiləşdirilməsinə əsaslanır və onların tətbiq imkanlarını izah edir.

Nəticələr və müzakirə

Coğrafiyanın tədrisində qeyri-standart dərslər şagirdlərin mövzuya müxtəlif fəaliyyətlər vasitəsilə cəlb edilməsinə imkan yaradır. Bu dərslərin təşkilində coğrafi məlumatların öyrənilməsi xəritələrlə iş, problemli situasiyaların təhlili, müzakirə, rollu oyun və təqdimatlarla əlaqələndirilir. Ənənəvi dərslərlə müqayisədə qeyri-standart dərslərdə şagirdlərin müstəqil fəaliyyətinə, qarşılıqlı əməkdaşlığına və əldə etdikləri məlumatların tətbiqinə daha geniş yer ayrılır.

Müəllim təlim məqsədlərini müəyyənləşdirir, tapşırıqları hazırlayır, fəaliyyətin gedişini istiqamətləndirir və nəticələrin qiymətləndirilməsini təşkil edir (Seyfullayeva, 2011; Alxasov, 2013; Nağıyeva, 2019).

Qeyri-standart dərslərin seçilməsində mövzunun məzmunu, şagirdlərin yaş və hazırlıq səviyyəsi, dərs üçün ayrılan vaxt və mövcud tədris vasitələri nəzərə alınmalıdır. Dərsin qeyri-adi formada keçirilməsi özlüyündə təlim məqsədi deyil. Hər bir fəaliyyət konkret coğrafi anlayışın mənimsənilməsinə, müəyyən bacarığın tətbiqinə və ya problemin araşdırılmasına xidmət etməlidir. Aşağıda müəllifin pedaqoji təcrübəsindən seçilmiş nümunələr əsasında müxtəlif dərs modellərinin təşkili imkanları təqdim olunur.

3.1. Səyahət dərsi

Səyahət dərsi coğrafi obyektlərin yerləşməsini, ərazilər arasındakı əlaqələri və seçilmiş marşrut boyunca təbii, sosial-iqtisadi və mədəni xüsusiyyətləri öyrənmək məqsədilə təşkil olunur. Bu dərs real səfər, xəritə üzərində şərti səyahət və ya rəqəmsal materiallardan istifadə etməklə virtual səyahət formasında keçirilə bilər. Şagirdlər marşrutu müəyyənləşdirir, keçilən obyektlər haqqında məlumat toplayır və əldə etdikləri nəticələri təqdim edirlər.

Müəllifin tətbiq etdiyi tapşırıqlardan biri Bakı şəhərindən Xəzər dənizi vasitəsilə Şimal Buzlu okeanına şərti gəmi səyahətinin planlaşdırılmasıdır. Şagirdlər xəritədən istifadə edərək su hövzələri arasındakı əlaqələri araşdırır, mümkün marşrut boyunca keçilməli çay, kanal və dənizləri ardıcıllıqla qeyd edirlər. Tapşırıq zamanı marşrutun coğrafi baxımdan əsaslandırılması ilə yanaşı, onun həyata keçirilməsinə təsir göstərə biləcək təbii və mövsümi şərait də müzakirə oluna bilər.

Digər tapşırıq Azərbaycanın sərhəd rayonları üzrə şərti səyahətin hazırlanmasıdır. Şagirdlər rayonların adlarını, həmsərhəd olduqları ölkələri və sərhəd boyunca yerləşən əsas coğrafi obyektləri müəyyənləşdirirlər. Araşdırmaya yaşayış məntəqələri, tarixi-mədəni abidələr, muzeylər və əhalinin təsərrüfat fəaliyyəti haqqında məlumatlar da daxil edilə bilər.

Dərsin sonunda qruplar hazırladıqları marşrutları xəritə üzərində təqdim edirlər. Qiymətləndirmə zamanı coğrafi obyektlərin düzgün göstərilməsi, marşrutun ardıcıllığı, məlumatların dəqiqliyi və təqdimatın aydınlığı nəzərə alınır. Bu fəaliyyət xəritə ilə işin müstəqil araşdırma və təqdimat tapşırıqları ilə əlaqələndirilməsinə imkan verir (Nağıyeva, 2019).

3.2. Məhkəmə dərsi

Məhkəmə dərsi müəyyən coğrafi və ya ekoloji problemin rollu müzakirə vasitəsilə araşdırılmasına əsaslanır. Sinifdə şərti məhkəmə mühiti yaradılır, şagirdlər tərəflərin nümayəndələri, ekspertlər, şahidlər və qərar verən qrup üzrə bölüşdürülürlər. Dərsin məqsədi hüquqi prosedurları təkrarlamaqdan daha çox, müxtəlif mövqeləri coğrafi məlumatlar və əsaslandırılmış arqumentlər vasitəsilə qiymətləndirməkdir.

Bu dərs formasından meşə ehtiyatlarından istifadə, çaylar üzərində bəndlərin tikilməsi, şəhər ərazilərinin genişləndirilməsi və enerji layihələrinin ətraf mühitə təsiri kimi mövzuların tədrisində istifadə etmək olar. Məsələn, meşə ərazisində təsərrüfat fəaliyyətinin genişləndirilməsi müzakirəyə çıxarıldıqda birinci qrup layihənin iqtisadi əhəmiyyətini, ikinci qrup isə mümkün ekoloji nəticələrini araşdırır. Üçüncü qrup təqdim olunan məlumatları müqayisə edir və qərarını əsaslandırır.

Müzakirədə məsələnin yalnız iki zidd mövqe ilə məhdudlaşdırılmaması vacibdir. Şagirdlər iqtisadi ehtiyacların və ekoloji mühafizənin uzlaşdırılması yollarını, alternativ həlləri və mümkün məhdudiyyətləri də nəzərdən keçirməlidirlər. Beləliklə, tapşırıq problemin çoxşaxəli təhlilinə yönəldilir.

Qiymətləndirmə meyarlarına istifadə olunan məlumatların etibarlılığı, arqumentlərin mövzuya uyğunluğu, qarşı tərəfin fikrinə münasibət və qərarın əsaslandırılması daxil edilə bilər. Bu dərs forması şagirdlərin dəlillərlə işləməsi və mövqeyini aydın ifadə etməsi üçün şərait yaradır.

3.3. Oyun dərsi

Oyun dərsi coğrafi biliklərin müəyyən qaydalar və tapşırıqlar əsasında tətbiqini nəzərdə tutur. Oyunun məzmunu təlim məqsədləri ilə əlaqələndirilməli, iştirak qaydaları və qiymətləndirmə meyarları əvvəlcədən izah edilməlidir. Tapşırıqlar fərdi, cütlərlə və ya qruplarla yerinə yetirilə bilər.

“Ölkəni tap” oyununda şagirdlərə ölkənin coğrafi mövqeyi, təbii şəraiti, əhalisi və təsərrüfatı haqqında mərhələli məlumatlar təqdim olunur. Şagirdlər həmin əlamətlərə əsasən ölkəni müəyyənləşdirir və cavablarını xəritədə göstərirlər. “Paytaxtı müəyyən et” oyununda isə şəhərin yerləşməsi və səciyyəvi xüsusiyyətləri haqqında məlumatlardan istifadə olunur. Cavabın düzgünlüyü ilə yanaşı, onun əsaslandırılması da qiymətləndirilir.


Relyef mövzularının tədrisində dağ və düzənliklərin xəritədə yerləşdirilməsi, hündürlük göstəricilərinin müqayisəsi və yaranma xüsusiyyətlərinin izahı üzrə oyun tapşırıqları hazırlamaq mümkündür. Ayrı-ayrı hissələrdən xəritənin və ya coğrafi obyektin təsvirinin tamamlanması da bu məqsədlə istifadə oluna bilər.

Rollu oyunlarda şagirdlər müəyyən problemin iştirakçılarını təmsil edirlər. Məsələn, su ehtiyatlarından istifadə mövzusunda fermer, şəhər sakini, ekoloq və yerli idarəetmə nümayəndəsi rolları bölüşdürülə bilər. Hər bir iştirakçı təmsil etdiyi tərəfin ehtiyaclarını izah edir və ümumi həllin hazırlanmasında iştirak edir. Bu fəaliyyət mövzuya müxtəlif mövqelərdən yanaşmağa imkan verir (Veysova, 2013).

3.4. Layihə dərsi

Layihə dərsi müəyyən problemin araşdırılması və nəticələrin konkret məhsul şəklində təqdim olunması üzərində qurulur. Bu məhsul təqdimat, xəritə, hesabat, məlumat bukleti və ya digər iş formasında hazırlana bilər. Layihənin təşkilində problemin müəyyənləşdirilməsi, məqsədin aydınlaşdırılması, fəaliyyətin planlaşdırılması, məlumatların toplanması və nəticələrin təqdim edilməsi bir-biri ilə əlaqələndirilir.

Layihə metodu şagirdlərin nəzəri biliklərini praktik tapşırıqlarla əlaqələndirmək üçün istifadə oluna bilər. Müəllim mövzunun seçilməsinə və fəaliyyətin planlaşdırılmasına istiqamət verir, şagirdlər isə müəyyən edilmiş tapşırıqlar üzrə məlumat toplayır, onları təhlil edir və nəticələrini hazırlayırlar. Layihə metodunun məzmunu və tətbiq xüsusiyyətləri Mehrabovun işində nəzərdən keçirilmişdir (Mehrabov, 2007).



Sxem 2. Layihə metodunun təşkili mərhələləri
Mənbə: Mehrabov (2007, s. 17) əsasında

Coğrafiya dərslərində layihə mövzusu kimi Azərbaycanın iqlim ehtiyatları, mühafizə olunan təbiət əraziləri, yerli ekoloji problemlər və su ehtiyatlarından istifadə məsələləri seçilə bilər. Məsələn, şagirdlərə müəyyən mühafizə olunan ərazinin coğrafi mövqeyini, yaradılma məqsədini, qorunan təbii komplekslərini və üzləşdiyi problemləri araşdırmaq tapşırılır. İşin nəticələri xəritə və izahlı təqdimat formasında təqdim olunur.

Peyk təsvirləri və rəqəmsal xəritələrdən istifadə imkanları olduqda layihələrə zaman üzrə müqayisə tapşırıqları da daxil edilə bilər. Kür çayının mənsəbində və ya Aral dənizinin sahil xəttində müxtəlif dövrlərdə baş vermiş dəyişikliklərin təsvirlər əsasında araşdırılması belə tapşırıqlara nümunədir. Bu zaman istifadə olunan materialların tarixi və mənbəyi göstərilməli, təsvirlərdə müşahidə edilən dəyişikliklərlə onların ehtimal olunan səbəbləri fərqləndirilməlidir.

Layihənin qiymətləndirilməsində problemin aydın qoyuluşu, məlumatların etibarlılığı, təhlilin məntiqi ardıcıllığı, təqdim olunan nəticələrin əsaslandırılması və qrup üzvlərinin iştirakı nəzərə alınmalıdır. Qiymətləndirmə yalnız yekun təqdimatı deyil, işin hazırlanması prosesini də əhatə etməlidir.

3.5. Səhnələşdirilmiş dərs

Səhnələşdirilmiş dərs coğrafi hadisə və proseslərin, eləcə də coğrafi kəşflər tarixinin müəyyən epizodlarının rollar və dialoqlar vasitəsilə təqdim olunmasına əsaslanır. Bu dərs formasında yaradıcı təqdimatın elmi məzmunla uyğunluğu əsas şərtdir. Şagirdlərin hazırladıqları səhnəciklərdə faktların düzgünlüyü və coğrafi anlayışların aydın izahı qorunmalıdır.

Coğrafi kəşflər mövzusunda Xristofor Kolumb, Fernan Magellan və Vasko da Qamanın səyahətlərindən seçilmiş epizodlar səhnələşdirilə bilər. Şagirdlər səfərin məqsədini, marşrutunu, qarşıya çıxan çətinlikləri və coğrafi əhəmiyyətini araşdıraraq dialoqlar hazırlayırlar. Marşrutların xəritədə göstərilməsi təqdimatı coğrafi məkanla əlaqələndirir.

İqlim qurşaqları mövzusunda qruplar ayrı-ayrı qurşaqları təmsil edə, temperatur və yağıntı xüsusiyyətləri, bitki örtüyü, heyvanlar aləmi və təsərrüfat fəaliyyəti haqqında məlumat təqdim edə bilərlər. Litosfer tavalarının hərəkəti mövzusunda isə tavaların yaxınlaşması və uzaqlaşması nəticəsində yaranan relyef formalarını modellərlə və dialoqlarla izah etmək mümkündür.

Dərsdən sonra təqdimatların müzakirəsi aparılmalı, istifadə olunan bənzətmələrin hansı xüsusiyyətləri izah etdiyi və hansı məhdudiyyətlərə malik olduğu aydınlaşdırılmalıdır. Bu mərhələ yaradıcı təqdimat zamanı coğrafi proseslərin

həddindən artıq sadələşdirilməsinin qarşısını almağa kömək edir.

3.6. Konfrans dərsi

Konfrans dərsi geniş mövzunun əvvəlcədən hazırlanmış çıxışlar və ümumi müzakirə əsasında öyrənilməsini nəzərdə tutur. Mövzu alt istiqamətlərə bölünür, şagirdlər fərdi və ya qrup şəklində araşdırma apararaq təqdimatlar hazırlayırlar. Müəllim məlumat mənbələrinin seçilməsinə, çıxışların əlaqələndirilməsinə və müzakirənin təşkilinə dəstək verir.

Xəzər dənizi mövzusu konfrans dərsinin təşkili üçün əlverişli nümunədir. Qruplar dənizin coğrafi mövqeyi, sahil əraziləri, suyun xüsusiyyətləri, bioloji ehtiyatları, səviyyə dəyişmələri, təsərrüfat əhəmiyyəti və ekoloji problemləri üzrə təqdimatlar hazırlaya bilərlər. Fənlərarası əlaqələri gücləndirmək məqsədilə tarix, biologiya və kimya müəllimlərinin məsləhətçi kimi iştirakı da nəzərdə tutula bilər.

Təqdimatlarda xəritə, diaqram, fotoşəkil və müxtəlif tarixlərə aid peyk təsvirlərindən istifadə mövzunun məkan və zaman xüsusiyyətlərini göstərməyə imkan verir. Məsələn, sahil xəttinin dəyişməsini əks etdirən təsvirlər müqayisə edilərkən müşahidə olunan fərqlər və onların mümkün izahları müzakirə olunur.

Konfransın sonunda təqdimatlar ümumiləşdirilir, qrupların nəticələri arasındakı əlaqələr müəyyənləşdirilir və əsas suallara cavab verilir. Qiymətləndirmədə mənbələrdən istifadə, məzmunun düzgünlüyü, təqdimatın aydınlığı və suallara əsaslandırılmış cavab verilməsi nəzərə alınır.

3.7. Debat dərsi

Debat dərsi müəyyən problem üzrə fərqli mövqelərin əsaslandırılmış şəkildə təqdim olunmasına əsaslanır. Müzakirə sualı aydın qoyulmalı, tərəflərin vəzifələri, çıxış müddətləri və qiymətləndirmə meyarları əvvəlcədən müəyyənləşdirilməlidir. Tərəflər yalnız öz mövqelərini təqdim etmir, qarşı tərəfin arqumentlərini də təhlil edirlər.

Coğrafiyanın tədrisində su ehtiyatlarından istifadə, enerji mənbələrinin seçilməsi, turizmin inkişafı və təbii ərazilərin mühafizəsi kimi mövzular üzrə debatlar təşkil oluna bilər. Müzakirəyə çıxarılan sual müxtəlif mövqelərin əsaslandırılmasına imkan verməli, elmi faktın doğruluğunu səsvermə ilə müəyyənləşdirməyə yönəlməməlidir.

Debatda iştirak edən tərəflərin məqsədi məlumat və dəlillər vasitəsilə mövqelərini əsaslandırmaq və qiymətləndirici qrupu inandırmaqdır. Qiymətləndirici qrup təqdim olunan arqumentlərin məntiqini, sübutların mövzuya uyğunluğunu və qarşı arqumentlərə verilən cavabları nəzərdən keçirir (Veysova, 2013, s. 59).

Dərsin sonunda müəllim müzakirəni ümumiləşdirir, faktlarla şəxsi mülahizələri fərqləndirir və açıq qalan sualları qeyd edir. Belə təşkil olunan debat şagirdlərə coğrafi məlumatlarla işləmək, fikrini ardıcıl ifadə etmək, digər mövqeləri dinləmək və qərarını əsaslandırmaq imkanı verir.

Qeyri-standart dərslərdə şagird fəaliyyətinin təşkili və qiymətləndirilməsi üzrə əsas metodik xüsusiyyətlər Cədvəl 1-də ümumiləşdirilmişdir.

Cədvəl 1

Coğrafiyanın tədrisində qeyri-standart dərs formalarının müqayisəli xüsusiyyətləri

Dərs forması	Əsas şagird fəaliyyəti	Məşq etdirilən bacarıqlar	Qiymətləndirmə meyarları
Səyahət dərsi	Marşrutun hazırlanması, obyektlərin xəritədə göstərilməsi	Məkan əlaqələrinin müəyyənləşdirilməsi, xəritə ilə iş	Marşrutun düzgünlüyü, obyektlərin ardıcıllığı, seçimin əsaslandırılması
Məhkəmə dərsi	Problemin müxtəlif mövqelərdən araşdırılması	Dəlillərin təhlili, arqumentasiya, qərarvermə	Mənbələrin etibarlılığı, arqumentlərin məntiqi, qərarın əsaslandırılması
Oyun dərsi	Coğrafi tapşırıqların oyun qaydaları üzrə yerinə yetirilməsi	Biliklərin tətbiqi, müqayisə, əməkdaşlıq	Cavabların düzgünlüyü, izahın aydınlığı, qaydalara əməl olunması
Layihə dərsi	Məlumatların toplanması, təhlili və yekun məhsulun hazırlanması	Planlaşdırma, araşdırma, təqdimat	Məlumatların dəqiqliyi, nəticələrin əsaslandırılması, fərdi töhfə

Dərs forması	Əsas şagird fəaliyyəti	Məşq etdirilən bacarıqlar	Qiymətləndirmə meyarları
Səhnələşdirilmiş dərs	Hadisə və proseslərin rollarla təqdim edilməsi	Modelləşdirmə, yaradıcı ifadə, ünsiyyət	Elmi məzmunun düzgünlüyü, izahın aydınlığı, rolların uzlaşdırılması
Konfrans dərsi	Mövzu üzrə çıxışların hazırlanması və müzakirəsi	Məlumatların sistemləşdirilməsi, təqdimat, suallara cavabvermə	Mənbələrdən istifadə, məzmunun düzgünlüyü, cavabların əsaslandırılması
Debat dərsi	Mövqelərin müdafiəsi və qarşı arqumentlərin təhlili	Tənqidi düşünmə, fəal dinləmə, əsaslandırma	Sübutların uyğunluğu, arqumentlərin ardıcıllığı, müzakirə mədəniyyəti

Mənbə: Məqalədə təqdim olunan metodik nümunələr əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Təqdim olunan dərs modellərinin ümumi xüsusiyyəti şagirdlərin coğrafi məzmun üzərində fəal işləməsinə şərait yaratmasıdır. Bununla belə, hər bir modelin tətbiqi konkret mövzuya və təlim məqsədinə uyğunlaşdırılmalıdır. Məqalədəki nümunələr metodik imkanları göstərir; onların akademik nailiyyətlərə təsirinin müəyyənləşdirilməsi ayrıca ölçmə və müqayisəli qiymətləndirmə tələb edir.

Nəticə

Coğrafiyanın tədrisində qeyri-standart dərslərin təşkili üzrə nəzərdən keçirilən metodik nümunələr aşağıdakı qənaətləri formalaşdırmağa imkan verir:

1. Səyahət, məhkəmə, oyun, layihə, səhnələşdirilmiş, konfrans və debat dərsləri coğrafi biliklərin xəritələrlə iş, araşdırma, müzakirə və təqdimat fəaliyyətləri ilə əlaqələndirilməsi üçün müxtəlif imkanlar yaradır. Bu dərs formalarının seçilməsi mövzunun məzmununa, təlim məqsədlərinə və şagirdlərin hazırlıq səviyyəsinə əsaslanmalıdır.
2. Qeyri-standart dərslərdə şagirdlərin fərdi və birgə fəaliyyətinin təşkili müstəqil məlumat toplamaq, coğrafi obyekt və hadisələri müqayisə etmək, mövqeyini əsaslandırmaq və nəticələrini təqdim etmək bacarıqlarının məşq etdirilməsinə şərait yaradır. Müəllimin əsas vəzifəsi həmin fəaliyyəti məqsədyönlü istiqamətləndirmək və bütün şagirdlərin iştirakını dəstəkləməkdir.
3. Xəritə, coğrafi model, rəqəmsal resurs və peyk təsvirlərindən istifadə tapşırıqların əyani materiallarla əlaqələndirilməsinə imkan verir. Bu vasitələr seçilərkən məlumatların etibarlılığı, şagirdlərin yaş xüsusiyyətləri və məktəbin texniki imkanları nəzərə alınmalıdır.
4. Qeyri-standart dərslərin qiymətləndirilməsi yalnız yekun cavab və ya təqdimatla məhdudlaşmamalıdır. Məlumat mənbələrindən istifadə, təhlilin düzgünlüyü, arqumentlərin əsaslandırılması, əməkdaşlıq və fərdi iştirak əvvəlcədən müəyyən edilmiş meyarlar əsasında qiymətləndirilməlidir.
5. Təqdim olunan nümunələr qeyri-standart dərslərin tətbiqinə dair metodik tövsiyələr kimi istifadə oluna bilər. Onların şagird nailiyyətlərinə və idrak fəallığına təsirinin daha dəqiq müəyyənləşdirilməsi üçün gələcək tədqiqatlarda sistemli pedaqoji müşahidələrin və müqayisəli qiymətləndirmənin aparılması məqsədəuyğundur.

ƏDƏBİYYAT

Alxasov, O. (2013). *Coğrafiyanın tədrisi metodikası*. Elm və təhsil.

Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2011). *Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənni kurikulumu (VI–XI siniflər)*.

Coğrafiya: VI–XI siniflər üçün dərsliklər. (t.y.).

Dr. Rohit Sublaik, Swati Prajapat, Mr. Sony Varghese, Dr.Vandna Sharma, & Sarkhan Jafarov. (2024). Marketing Innovations And Their Impact On Financial Performance: Perspectives From Management Experts. *Educational Administration: Theory and Practice, 30*(5), 9286–9292. https://kuey.net/index.php/kuey/article/view/3504

E-dərslik: Elektron dərslik portalı. (t.y.). https://www.e-derslik.edu.az/

Foote, K. E., & Hill, A. D. (2013). *Integrating GIS into the geography curriculum* [Coğrafiya kurikulumuna coğrafi informasiya sistemlərinin inteqrasiyası]. Association of American Geographers.

Jafarov, S. (2025). Education and skill development: A pathway to sustainable growth. *International Journal of Scientific Research and Management (IJSRM), 13*(02), 3963–3969. https://doi.org/10.18535/ijsrm/v13i02.el06

Jafarov S. (2024). Accreditation and Quality Assurance in World-Leading Universities. *International Journal of Current Science Research and Review, 7*(12), 9357-9365, https://doi.org/10.47191/ijcsrr/V7-i12-77

Jafarov, S., & Aliyev, Y. (2024). What causes culture shock?. *South Florida Journal of Development, 5*(7), e4106. https://doi.org/10.46932/sfjdv5n7-012

Məmmədov, Q. Ş. (2019). *Coğrafi biliklərin formalaşmasında inteqrativ yanaşma*. Təhsil.
Mehrabov, A. O. (2007). Layihələr metodu: Məzmunu, tətbiqi və xüsusiyyətləri. *Azərbaycan məktəbi*, (3), 11–18.
Nağıyeva, İ. İ. (2019). *Ümumtəhsil məktəblərində coğrafiyanın tədrisində şagirdlərin müstəqil işlərinin təşkili*. Mütərcim.
Seyfullayeva, N. S. (2011). *Coğrafiyanın tədrisi metodikası*. EMK.
Verdiyeva, M. İ. (2022). *Coğrafiyanın tədrisi metodikası*. ADPU-nun mətbəəsi.
Veysova, Z. (2013). *Ümumi orta təhsil səviyyəsi üzrə yeni fənn kurikulumlarının tətbiqi*. "İnkişaf" Elmi Mərkəzi.

METHODOLOGY FOR ORGANIZING NON-STANDARD LESSONS IN GEOGRAPHY TEACHING

Irada Naghiyeva[1]*
[1]*Azerbaijan State Pedagogical University, Azerbaijan*
**Corresponding author: ii.nagiyeva@adpu.edu.az*

Abstract. This article examines the methodology and application of non-standard lessons in geography teaching. The study aims to identify their pedagogical potential for developing students' cognitive engagement, independent thinking, and practical skills. The research draws on an analysis of scholarly and methodological literature, a comparison of traditional and interactive teaching approaches, and the author's experience in teaching geography. The development of the class-lesson system is reviewed, and the importance of student-centred learning is discussed in relation to contemporary curriculum requirements. The organization of journey-based lessons, mock trials, educational games, project-based activities, dramatizations, classroom conferences, and debates is illustrated through examples addressing geographical topics. The potential of map work, geographical problem discussions, role-playing, and project tasks to engage students in learning is assessed. Particular attention is paid to the use of geographic information systems and remote sensing data to support visual learning and the development of research skills. The methodological examples illustrate opportunities to connect geographical knowledge with practical tasks and support collaboration, communication, and critical and creative thinking. Effective implementation requires clearly defined learning objectives, consideration of students' age-related characteristics, topic-appropriate tasks, and assessment criteria established in advance.

Keywords: *geography teaching, non-standard lessons, interactive learning, project method, cognitive engagement, practical skills*

İstinad vermək üçün (APA 7):
Nağıyeva, İ. (2026). Coğrafiyanın tədrisində qeyri-standart dərslərin təşkili metodikası. *Coğrafiya və Təbii Resurslar, 12*(1), 31–37. https://doi.org/10.5281/zenodo.23453537